# Həyat dolu ömür yolu

Yaşadığın illər ərzində elə bir iz salasan ki, hər kəs bu izin sahibini arasın, axtarsın. Sən özün də elə bir izlə addımlamalısan ki, haqq-ədalətin, xeyirxahlığın, hümanizm prinsiplərinin ən ali zirvəsini fəth edəsən. Bir sözlə, belə insanlar sağlığında bir məktəb, gözəlliklərlə dolu bir ümman yaradır. Elə bir ümman ki, xəzinə kimi bitib-tükənməyən, ürəklərə - qəlblərə hakim kəsilib yalnız insanı gözəlliklərlə dolu bir həyat yaşamağa, ən yaxşı insan kimi ömür sürməyə inam yaranır. Elə bir ömür ki, hər kəsin yoluna çıraq, həyat tərzinə ən dəyərli nəsihət, ibrətamiz ömür hekayəsi olsun. Peşəsindən, dinindən asılı olmayaraq ən mükəmməl insan obrazını gələcək nəsillərə çatdırmaq və onlara bu yolu, nümunəvi yaşam tərzini aşılamaq həyat amalına çevrilsin. Tarixə, hekayəyə, epopeyaya çevrilən bu insanların ömrü daim yaşayır, həyat durduqca, Yer Kürəsi fırlandıqca.

İnsan kimi, peşəsinin vurğunu, valideyn, vətənpərvər, şəxsiyyət, ziyalı kimi həyat var olduqca daim qəlblərə köçmək, ürəklərdə yer tapmaq hər insana nəsib olmur. Bunun üçün işini, peşəsini sevən, xalqa, vətənə böyük dəyər verən, bütün bunları yaşadığın zaman ərzində işində, əməyində, xarakterində,bacarığında göstərən bir ziyalı, şəxsiyyət və vətəndaş olmaq vacib amildir. Yaşadığı zaman ərzində öyrəndiklərini öyrətmək, həyat müşahidələrini gələcəyə daşımaq böyük hünər tələb edir.

Bütün bunların bir insanın xarakterində birləşməsi, tələb olunan həyat yükünü çiyinlərdə daşımaq, varlığı ilə mükəmməl şəxsiyyət olaraq qəlbi vətənə, xalqa xidmət yolunda döyünən, çətinliklər anında narahat olub çırpınan Rafiq Ələkbərovun taleyində yaşandı. Özünü, ətrafını, insanları, bir sözlə, dünyanı sevmək bacarığı ilə hər kəsdən fərqlənidi Rafiq müəllim. Onun bütün dünyanı tanımaq istəyi, həyatı sevmək, xeyirxahlıqlarla dolu bir ömür sürmək, yaşadıqlarını və yaşananları təxəyyülün, qələmin gücü ilə sevgisini bəyan etmək istedadı həm də ağır zəhmət tələb edirdi. Maraqlı, faydalı, xalq üçün vacib bir peşənin sahibi olmaq, təkcə yazmaq bacarığı deyil, baş verənləri dolğunluğu ilə çatdırmaq əsl jurnalist kimi yanaşmaq və ən əsası sevimli insan kimi hər kəsin qəlbinə yol tapmışdır Rafiq müəllim. Jurnalist bacarığı, əsl insan xarakteri, mükəmməl vətənpərvər vətəndaş prinsipi ilə yaşadı Rafiq müəllim. Yaşadı, yazdı, yaratdı, yaşadığı zaman ərzində öyrəndi, öyrətdi və bu günə daşıdı. Qələmində, ürəyində, fikirdüşüncəsində, ideya və amallarında daşıdı bu peşənin sirrini, yükünü. Jurnalist gözü ilə baxdı, yazdı, vətəndaş kimi qiymətləndirdi, ziyalı kimi nəticə çıxarmağı öyrətdi. Qələminin gücü ona daha uzaqlara getməyi, o qələmə ağırı yüngülə çevirməyi, qaranı-ağa bürüməyi, bəd əməlləri xeyirxahlıqla əvəz etməyi tələbi qoyurdu. Özü-özünə bir insan kimi elə tələb qoyurdu ki, həyatı bütünlüklə əks etdirsin. Yaxşısı ilə,pisi ilə, çətini və asanı ilə həyatı tamamilə əks etdirən bir qələmə sahib olmaq taleyi, əsl insan,vətəndaş və peşəsini sevib sevdirmək bacarığı ilə yaşadı. Elə bir ömür yaşadı ki, yaşananları bu gün üçün yaşatdı. Doğruluğu, xeyirxahlığı, alicənablığı, səmimiyyəti, ailəcanlılığı ilə örnək olan bir həyat yaşadı. Kəndinin, rayonunun, ən nəhayət, Azərbaycanın fəxri oldu Rafiq



müəllim. Onun işinə, ailəsinə, insanlara diqqət və qayğısı hər zaman aydın şəkildə görünmüşdür.

Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 25 aprel 2025-ci il tarixli Sərəncamına əsasən geniş tədbirlərin həyata keçirilməsi, mətbuatımıza, milli dəyərlərə, dövlətimizin və dövlətçiliyimizin mənafeyini hər zaman uca tutan jurnalistlərimizə, o cümlədən bu yola ömrünü həsr edən Rafiq Abdulla oğlu Ələkbərova verilən ən böyük dəyərdir.

Rafiq Abdulla oğlu Ələkbərov 1960-cı illərin əvvəllərindən başlayaraq Azərbaycan mətbuatının inkişafına böyük töhvə vermiş, işinə sevgisi, diqqət və məsuliyyəti, vəzifəsində düzgün mövqeyi onu daha fərqli insan, vətəndaş kimi sevdirmişdir.

Rafiq Ələkbərov Azərbaycanın dilbər güşəsi Qəbələnin Kürd kəndində 17 may 1939-cu ildə ziyalı ailəsində doğulmuş, orta məktəbi əla qiymətlərlə başa vurmuş, 1963-cü ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. İlk əmək fəaliyyətinə 1956-cı ildə Qəbələ rayon mətbuatı "Mübariz" qəzetində ədəbi işçi, 1963 - 1965-ci illərdə isə "Sovet kəndi" qəzeti redaksiyasında korrektor, xüsusi müxbir, məsul katib və şöbə müdiri vəzifələrində çalışmışdır. İşlədiyi illər ərzində işinə məsuliyyəti ilə yanaşması, günün aktual məsələlərinin daha qabarıq şəkildə işıqlandırması Rafiq müəllimi digər həmkarlarından fərqləndirmişdir. Mətbuatda fəallığı, qələminin gücü, dövrün çatışmazlığını və o cümlədən gələcəyi doğru görmək bacarığına görə 1977 - 1979-cü illərdə Moskva şəhərində keçmiş Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi yanında İctimai Elmlər Akademiyasında dinləyici kimi kurslarda iştirakçı olmuşdur. Hər bir yeniliyi işinə tətbiq edən Rafiq Ələkbərov Azərbaycana qayıtdıqdan sonra ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsində təlimatçı kimi işə başlamışdır. 1979 - 1986-cı illər ərzində bu vəzifəni uğurla yerinə yetirmişdir. Peşəsini layiqincə yerinə yetirən, dövrün tələblərinə cavab verən jurnalist etikasının nümunəsini sərgiləyən, rəhbərliyin etimadını qazanan Rafiq müəllim 1986 - 1992-ci illər ərzində Mərkəzi Komitənin orqanı olan "Təşviqatçı" (sonrakı adı "Dialoq") jurnalının baş redaktoru olmuşdur. 1989-cu ildə uzun illər əmək fəaliyyətində fərqləndiyinə, uğurlarına və jurnalistikanın inkişafına verdiyi töhvələrə görə Azərbaycan Respublikasının Əməkdar Jurnalisti Fəxri adı verilmişdir. Rafiq Ələkbərov hər zaman işini mükəmməl şəkildə həyata keçirmiş, əmək fəaliyyətini fasiləsiz ilərlə davam etdirmişdir. 1992 - 2000-ci illərdə Bakı Şəhəri Nizami rayon İcra Hakimiyyətində başçının köməkçisi, Ərazi ilə iş şöbəsinin müdiri vəzifəsində, Azərbaycan Respublikası Vergilər Nazirliyinin kadr siyasəti və hazırlığı idarəsində baş mütəxəssis vəzifəsində çalışmışdır. İşini, ailəsini, bir sözlə dünyanı, yaşamağı sevən Rafiq müəllim hər yerdə, hər işdə öndə idi. Daşıdığı vəzifəsində məsuliyyəti ilə, ailədə başçı kimi, ata kimi diqqət və qayğısı ilə, insanlığı ilə bu dünyada yaxşı ad qoydu getdi Rafiq müəllim. Hər işdə, hər yerdə birinci oldu, öndə getdi, bütün gözəllikləri yaşatdı, yaşadı və bu günə yalnız xoş xatirələr, ünvanına gözəl sözləri yazdı getdi, xeyirxahlıqla dolu ömür dastanı qoydu.

2001-ci il iyun ayının 21-də insanları, təbiəti, kainatı sevən Rafiq Ələkbərov bu dünya ilə vidalaşdı... Özündən sonra xoş xatirələr, dünəni, keçən günləri yaşadan və bəzən də yaxınlarına, əzizlərinə təskinlik verən, ömür yoluna davam etmək gücü verə biləcək kəlmələri yadigar qaldı.

Bu gün onun həyatını, fəaliyyətini əks etdirən şəxsi əşyaları, sənədləri, fəxri fərmanları Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin fondunda mühafizə edilir. Tarixə çevrilən bir ömür yolu olub cümlələrə, sətirlərə, kitablara yazıldı Rafiq müəllimin bu dünyada yaşadıqları. Həyat dolu ömür yolu hər kəsə nümunə, örnək oldu.

**İlhamə SEYİDOVA,**
**"Qəbələ"nin ştatdankənar müxbiri.**

# Bahar ömürlülər

***İyulda doğulan, İkinci Vətən Müharibəsində igidliklə döyüşərək şəhid olan qəbələli gənclər, məkanınız cənnət olsun! Sizlər tarixin, xalqın yaddaşında əbədi yaşayırsınız!***



**Rəşid Qəzənfər oğlu Nəsrullayev, 11.07.1993 - 03.11.2020, Nic qəsəbəsi.**



**İmaməddin Niyaməddin oğlu Yusifov, 22.07.2002 - 10.10.2020, Mıxlıqovaq kəndi.**



**Mikayıl Hümbət oğlu Əhmədov, 24.07.1993 - 03.11.2020, Savalan kəndi.**



**Elnur Məmmədkərim oğlu Rəhimov, 25.07.2000 - 01.12.2020, Mıxlıqovaq kəndi.**



## Qəbələ qəzetinə

**2025-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 20 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***



*İsti yay günləri davam edir.*

## Elan

***Zarağan bələdiyyəsinə boş qalan mühasib ştatı vəzifəsinə işçi tələb olunur.***

## İtmişdir

Qəbələ rayon Abrıx kənd sakini **Baxışov Bəhər Səxavət oğluna** məxsus **tələbə bileti və şəxsiyyət vəsiqəsi itdiyi üçün** etibarsız sayılır.

Redaktor
Azad Məmmədov.

TƏSİSÇİ:
Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 204-19-14.
Ümumi: (024) 204-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 900*